# Zəngəzur dəhlizi reallığa çevrilir

***Prezident İlham Əliyevin qətiyyətini əks etdirən bu ifadənin davamı “Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik” sözləridir***



***İkinci Qarabağ müharibəsində Azərbaycan güc yolu ilə beynəlxalq hüququ təmin etməyin nümunəsini göstərdi. 44 gün davam edən Vətən müharibəsində torpaqlarını işğaldan azad edən Azərbaycanın Zəfərini qüdrətli ölkənin uğuru, ədalətin bərpası kimi qəbul edən dövlətlər xalqımızla həmrəyliklərini bildirdilər. Ali Baş Komandan kimi düşmən üzərində Qələbəsini döyüş meydanlarında qazanan Prezident İlham Əliyev müharibə dövründə 30-a yaxın xarici KİV-ə müsahibələri, çıxışları, xalqa müraciətləri, 4 saatlıq mətbuat konfransında, mühüm beynəlxalq platformalarda məntiqli çıxışları ilə informasiya müharibəsinin də qalibi olduğunu göstərdi.***

ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin suallarını operativ, məntiqlə, təmkinlə, dünyada baş verən siyasi hadisələr fonunda cavablandıran Prezident İlham Əliyev Ermənistanın və erməni lobbisinin yalanlarının üstündən xətt çəkdi, informasiya strategiyasına uyğun sistemlilik üzrə xalqımızın mənafeyini, dövlətçilik maraqlarımızı dünya ictimaiyyətinə bəyan etdi. Vətən müharibəsi Azərbaycanın Qələbəsi ilə bitdikdən sonra ötən ilin noyabr ayının 10-da imzalanmış üçtərəfli Bəyanatda ölkəmizin maraqları əksini tapdı. Bəyanatın ən mühüm tarixi əhəmiyyətli bəndlərindən olan Zəngəzur dəhlizinin bərpası ilə bağlı məsələ bütünlükdə türk dünyası tərəfindən razılıqla qarşılandı.

Zəngəzurun tarixi Azərbaycan torpaqları olduğunu o ərazilərin toponimikası, coğrafi yerləşməsi və saysız-hesabsız başqa məlumatlar təsdiqləyir. Zəngəzur qəzası inzibati-ərazi vahidi kimi Yelizavetpol (Gəncə) quberniyasının yaranması ilə formalaşıb, ərazisinə indiki Sisyan (Qarakilsə), Gorus, Qafan, Mehri, Zəngilan, Qubadlı, Laçın bölgələri daxil idi. Bu doğma torpaqlarımızın xeyli hissəsi Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra ermənilərin hiyləsi, Rusiyanın köməkliyi ilə alınıb, Ermənistana verilib. Zəngəzur tarixin bütün mərhələlərində azərbaycanlılara, Azərbaycan türklərinə məxsus yaşayış yeri olub. Ermənilər Qərbi Azərbaycanda olduğu kimi, zəbt etdikləri digər ərazilərdə də, o cümlədən Zəngəzurda Azərbaycana məxsus adları özününküləşdirərək , tarixi abidələri süni surətdə saxtalaşdırmış, onları xristian kilsəsi, məbədi adlandırmaqla bu diyarda guya ancaq ermənilərin yaşadıqlarını sübut etmək üçün məkrli siyasət yeritmişlər. Halbuki qədim Azərbaycan torpağı olan Zəngəzurda XVII əsrə qədər bir nəfər də olsun erməni adında nə tayfa, nə qəbilə, hətta bir erməni belə yaşamayıb. Bu yerlərdəki tarixi abidələrin, bulaqların, yurdların, obaların adları da türkcə, albancadır. “Gülüstan” ( 1813) və “Türkmənçay” (1828) müqavilələrindən sonra İrandan köçürülən ermənilərin Zəngəzurda, Qarabağda yerləşdirilməsi ilə bu yurdun acı günləri başlayıb. 1919-cu ildə Zəngəzurdakı 222 yaşayış məntəqəsindən 116-sı Azərbaycan türklərinə məxsus olub. İllərdən bəri etnik təmizləmə siyasəti yeridən ermənilər zaman-zaman bu torpağın əsl sakinləri olan azərbaycanlıları doğma torpaqlarından iraq salmış, günahsız insanları qətlə yetirmişlər. 1988-ci ildə isə zəngəzurlular son nəfərinə qədər öz torpaqlarından qovulmuşlar.

Amma saxtakarlığı sevməyən zaman hökmünü verdi. Vətən müharibəsində qalib gələn Azərbaycan Dağlıq Qarabağdakı tarixi torpaqlarını işğaldan azad etməklə Zəngəzura qovuşmaq istəklərini də reallaşdırır. Zəngəzurun Azərbaycanın tarixi ərazisi olduğunu Bəyanata salınan bəndlə təsdiq edən Prezident İlham Əliyev daha bir tarixi missiyasını yerinə yetirdi.

“Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində də tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi” sözləri ilə Zəngəzurun Azərbaycana qaytarılmasında israrlı olduğunu bildirən Prezident İlham Əliyev müharibədən sonra işğaldan azad olunmuş torpaqlarda aparılan quruculuq, abadlıq işlərinin Zəngəzurda da davam etdiriləcəyini inamla bildirir.

Zəngəzur dəhlizinin region ölkələri, türk dünyası üçün əhəmiyyətinin izaha ehtiyacı yoxdur. Bu yolun açılmasını Azərbaycanın digər əraziləri ilə əlaqənin bərpası üçün darıxan naxçıvanlılar daha çox istəyirlər. Sovetlər dövründə Bakıdan Naxçıvan Muxtar Respublikasına uzanan dəmir yolundan istifadə edən naxçıvanlılar Zəngəzur, sonradan Mehri adlandırılan stansiyada dayananda yol nəzarətçiləri olan ermənilərin məcburi, nifrət dolu baxışlarını görməmək üçün vaqonların pərdələrini çəkirdilər. Ata-baba yurdumuz olan Zəngəzuru Mehri adlandıran mənfur ermənilər türklərə qarşı nifrətlərini qatarı nəzərdə tutulduğu vaxtdan da artıq saxlamaqla bildirir, sanki rahatlıq tapırdılar. Öz torpağımızda qəriblik hiss edən naxçıvanlılar ermənilərin bu “cəzalarına” dözməyə məcbur idilər. Çünki zorla qardaşlıq ailəsində birləşdirilən imperiyanın ermənilərə dəstəyi bizi bu məcburiyyətə öyrəşdirmişdi. Qatarın Araz çayı boyu keçdiyi yolda isə sovetlərin yaşıl papaqlı, əli avtomatlı sərhədçiləri Cənubi Azərbaycanda yaşayan qardaşlarımızı görməyək deyə bütün pərdələri bağlayırdılar.

“Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq, görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq... Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər” söyləyən Prezident İlham Əliyevin iradəsi tarixi Zəngəzur həsrətimizə son qoyulacağı inamını artırır. ADA Universitetində keçirilən konfransda “Bildiyiniz kimi, bu gün biz kommunikasiyanın açılmasını, xüsusilə Zəngəzur dəhlizini müzakirə edirik və Zəngəzur dəhlizi Türkiyənin razılığı və onların iştirakı olmadan açıla bilməz. Baxmayaraq ki, Türkiyə Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupunda iştirak etmir, Türkiyə müzakirələrlə bağlı bizim tərəfimizdən məlumatlandırılır və əgər Ermənistan kommunikasiyalarla bağlı çətinliklərə son qoymaq istəyirsə, onlar tranzit ölkə olmaq üçün hər hansı imkana malik olmaq istəyirlərsə, yalnız Türkiyə onları bununla təmin edə bilər. Bildiyimə görə, Türkiyə hökuməti hazırdır. Beləliklə, top Ermənistan tərəfdədir” sözləri ilə Ermənistana başqa çıxış yolu olmadığını xatırladan dövlət başçımız İlham Əliyevin bir neçə il əvvəl söylədiyi “Bizim ata-baba yurdumuz olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır” sözlərini siyasi iradəsi, qətiyyəti ilə reallaşdırır. “Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik” söyləyən Prezident İlham Əliyevin söylədiyi “Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik” sözlərinin yaxın zamanlarda gerçəkləşəcəyinə inanırıq. Buna da əminik ki, Bakı-Naxçıvan qatarı artıq Mehridə deyil, lövhədə “Zəngəzur” sözləri yazılmış stansiyada dayanacaq.

**Xuraman İsmayılqızı,**
***“İki sahil”***